Cəza haqqında – UOT 343.24.01
Cəzanın təyini – UOT 343.24

# AZADLIQDAN MƏHRUMETMƏ CƏZASININ İNKİŞAF TARİXİNƏ DAİR

**E.İ.MURADOV**
***Bakı Dövlət Universiteti***
***elsever.muradov"mail.ru***

*Məqalədə Çar Rusiyası dövründə 1832-ci ildən başlayaraq 1845 və 1903-cü il Qanunnamələrində cəza növü kimi azadlıqdan məhrumetmə növündə cəzanın anlayışı, növləri, tətbiqi şərtləri və müddətləri şərh edilir. Rusiyada cinayətkarlıqla mübarizədə katorqa, sürgünə göndərmə, islah evində məhkumetmə, həbsetmə kimi cəza növləri tətbiq edilirdi. Bundan başqa, məqalədə ardıcıl olaraq Sovet dövründə qəbul edilmiş ilk Cinayət Məcəllələri və 4 iyun 1947-ci il "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" qanun üzrə azadlıqdan məhrumetmə cəzası tədqiq edilir və Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində təkliflər verilir.*

**Açar sözlər:** azadlıqdan məhrumetmə, sürgünə göndərmə, islah evində həbsetmə, qalada dustaqetmə, həbsxanada məhkumetmə

Azadlıqdan məhrumetmə daha çox tətbiq edilən cəza növlərindən olmaqla yanaşı, həm də cinayət cəzasının ən səciyyəvi növlərindən biridir. Qeyd edilən cəza növü Azərbaycanda əsas cəza növlərindən biri olmuş və belə cəza növü kimi də qalmaqdadır. 1845-ci il çar Rusiyasının "Cinayət və İslah cəzaları haqqında" Qanunnaməsinə müvafiq olaraq, azadlıqdan məhrumetmə "cəzanın pilləkənində" əsas cəza növünə aid edilirdi və cəza sisteminin özəyini təşkil etməklə, özünəməxsusluğu ilə səciyyələnirdi. Azadlıqdan məhrumetmə növündə cəzanın həcmi Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində nəzərdə tutulan eyni adlı cəza növündən həm formasına, həm də məzmununa görə daha geniş idi.

1845-ci il çar Rusiyasının "Cinayət və islah cəzaları haqqında" Qanunnaməsinin 2-ci maddəsinə əsasən, azadlıqdan məhrumetməyə aid edilirdi: müddətsiz və ya 4 ildən 15 ilə qədər müddətə təyin edilən katorqaya və bir sıra hallarda isə, 20 ilə qədər müddətə sürgünə göndərmə; cəzanın çəkilməsi yerini əvvəlcədən təyin etməklə müddətsiz sürgünə göndərmə; 1 il yarımdan 6 ilə, bir sıra hallarda isə, 8 ilədək müddətə islah evində həbsetmə; 2 həftədən 6 ilə,

bir sıra hallarda isə, 8 ilədək müddətə qalada dustaqetmə; 2 həftədən 1 ilə, bir sıra hallarda isə, 2 ilədək müddətə həbsxanada məhkumetmə; 1 gündən 6 aya, bir sıra hallarda isə, 1 ilədək müddətə həbsetmə. Cəzanın çəkilməsi yerini əvvəlcədən təyin etməklə müddətsiz sürgünə göndərmə cəzası azadlıgı məhdudlaşdırmaqla, müstəsna hallarda təyin edilirdi (12, 103).

1845-ci il "Cinayət və islah cəzaları haqqında" Qanunnamədə cəza sistemi kifayət qədər geniş idi. Məsələn, əgər sürgünetməni bu sistemdən kənar hesab etsək, cəza sisteminin mərkəzində dayanan azadlıqdan məhrumetmə beş növə bölünürdü: katorqa, islah evində həbsetmə, qalada dustaqetmə, həbsxanaya məhkumetməklə həbsetmə.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamə Sibirə və uzaq quberniyalara yaşamağa göndərməni cəzanın sisteminə qətiyyən daxil etmirdi, həmçinin cinayət mühakimə icraatının Nizamnaməsinə tamamilə zidd olaraq cəzanın dərəcələrə bölgüsünün əvəzinə ayrı-ayrı cəza tədbirlərinin ayrılmasının digər ölçüsünü müəyyən edirdi. Qanunnamənin 22-ci maddəsinə əsasən, katorqanın müddəti illərlə və yarım illərlə, islah evində dustaqetmənin müddəti illərlə və aylarla, qalada və həbsxanada məhkumetmənin müddəti illərlə, aylarla və həftələrlə, həbsin müddəti isə, aylarla, həftələrlə və günlərlə müəyyən edilirdi. Azadlıqdan məhrumetmənin müddətinin hesablanması zamanı ay 30 günə, gün isə 24 saata bərabər nəzərdə tutulurdu.

Katorqa iki funksiya ilə bağlı idi: sözün həqiqi mənasında görülən işlərlə və sonradan həyata keçirilən sürgünlə. Bütün hüquqi statusdan məhrumetmə həmişə katorqaya birləşdirilirdi. Katorqa öz xarakterinə görə, binalarda və ya onlardan kənarda məcburi ağır işlərlə katorqa həbsxanalarına məhkumetmədən ibarət idi. Katorqa şəxs tərəfindən cəzalanmalı olan əməlin təkrar törədilməsi zamanı və cinayətin qulluqçu tərəfindən törədildiyi təqdirdə 20 ilədək müddətə təyin edilirdi. Bu cəza növü yalnız xidməti və silki hüquqlardan məhrumetməyə yox, həm də ailə və əmlak hüquqlarından məhrumetmə və onların məhdudlaşdırılmasına səbəb olurdu. Katorqanın çəkilməsi üzrə cinayətkarlar əvvəlcədən təyin edilən mərkəzi rayonlardan uzaq yerlərə sürgünə köçürülürdü. Katorqa işlərinin həyata keçirilməsi üçün Sibir və Saxalin adası, bir sıra dövləti cinayətkarlar üçün isə, Şlisserburq həbsxanası müəyyən edilmişdi.

Sürgünetmə cəzasının iki növü mövcud idi: Sibirə sürgünetmə və Zaqafqaziyaya sürgünetmə. Zaqafqaziyaya sürgünetmə yalnız bir sıra cinayət növlərinə, ilk öncə dini cinayətlərə görə təyin edilirdi. Sürgünə göndərmə müddətsiz cəza idi. "Sürgün edilmişlər və həbs cəzasını çəkdikdən sonra yaşamaq üçün uzaq yerə sürgün edilən şəxslər haqqında" Nizamnaməyə müvafiq olaraq, Sibirdə olduqda, 20 il keçdikdən sonra həmin şəxslər kəndli hesab edilə və Sibir quberniyalarının əksəriyyətində yaşaya bilirdi. Sibirə sürgünetmə 2 səviyyədə həyata keçirilirdi: 1) Sibirin ən uzaq yerlərinə sürgünetmə; 2) o qədər də uzaq olmayan yerlərə sürgünetmə. Zaqafqaziyaya sürgünetmə cəzası cəzanın ümumi sisteminə daxil edilsə də, yalnız bir sıra xüsusi növ cinayətlərə görə təyin edilirdi. Həmin növ cinayətlərə aid edilirdi: küfretmə və ya ni-

faqsalma, yeni təriqətlər yaratma, pravoslav kilsəsini fanatizmə görə təhqir etmə və mövhumatçı təriqətlərə mənsubolma. Bununla belə, Zaqafqaziyaya sürgünetmə hüquqi nöqteyi-nəzərdən müstəsna cəza xarakteri daşıyırdı. Çünki yüksək cəza növlərindən ona, həmçinin ondan aşağı cəza növlərinə keçidə yol verilmirdi. Həmçinin Sibirə sürgün edilənlərin əksinə olaraq Zaqafqaziyaya sürgün olunanlar hökumətin sərəncamı üzrə köçürülən dövlət kəndliləri üçün müəyyən edilmiş qaydalara əsasən yerləşdirilirdi. Sürgün edilmiş şəxslərə Zaqafqaziyanın bütün şəhərlərində meşşan təbəqəsində qeydiyyata alınmağa icazə verilirdi.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnaməyə əsasən, azadlıqdan məhrumetmənin dördüncü növü kimi cinayət əməllərinin ikinci növünü təşkil edən xətalara görə ən yüksək cəza hesab edilən islah evində məhkumetmə çıxış edirdi. İslah evlərinə bütün siniflərdən olan kişilər və qadınlar göndərilirdi. İyirmi bir yaşına çatmayan şəxslər üçün cəzanın müddəti üçdə birə qədər azaldılırdı. Bu cəzaya məhkum edilən şəxslər əvvəlcə 3 aydan 6 aya qədər müddətə biradamlıq kamerada saxlanılırdı, sonra isə, ümumi həbsxanaya köçürülürdü. İslah evlərində saxlanılan şəxslər məcburi qaydada həm islah evinin binasında, həm də islah evindən kənarda qazanılmış vəsaitin üçdə birini alaraq müxtəlif işlərlə məşğul olurdu. Təyin edilmiş cəzanın müddətinin yarısını çəkdikdən sonra cəzaya məhkum edilmiş şəxslər islah olunanların dəstəsinə köçürülə bilərdi. Bu da özlüyündə bir sıra imtiyazlara səbəb olurdu. İslah evlərindən azad edilən şəxslər passiv seçki hüququ və yaşayış yerinin dəyişdirilməsi hüququ ilə kifayətlənirdilər.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamə islah evində məhkumetmə cəzasına islah cəzalarının birinci növünü təşkil edən Sibirdə yaşamağagöndərmə və ya islah həbs bölmələrinə vermə kimi cəza növlərini daha çox yaxınlaşdırırdı. Bu bənzətmə təqribi səciyyə daşıyırdı. Sibirdə yaşamağagöndərmə yalnız 1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamənin nəşrindən sonra müstəqil cəza kimi mövcud oldu. Çünki həmin dövrə qədər Sibirdə yaşamağagöndərmə sürgünetmə cəzasından ayrılırdı. Layihənin redaktorları bu cəzanı imtiyazlı şəxslər üçün Qanunnaməyə daxil etmişdi. Məqsəd bu cəzanın müddəti ilə həmişə çubuqlama kimi cismani cəza ilə birləşən imtiyazlı olmayan şəxslər üçün təyin edilən müvafiq cəza növlərini tarazlaşdırmaqdan ibarət idi. Sibirdə yaşamağagöndərmə müddətsiz cəza növü idi. Yaşamağagöndərmə iki növə bölünürdü: Sibirə müvafiq həbs bölmələrinə göndərmə və Avropa Rusiyasının uzaq quberniyalarına həbsxana ilə əvəz olunan müvafiq işçi evinə göndərmə. Yaşamağa göndərmə hüquqi vəziyyətinə görə cismani cəzalardan azad edilmiş imtiyazllı şəxslərə təyin edilirdi və həmişə bütün xüsusi hüquq və üstünlüklərdən məhrum edilməklə birləşdirilirdi.

İslah cəzalarının daha ağır növünün ilkin surəti kimi həbs bölmələrinə hərbi idarənin həbs bölükləri daxil idi. 1827-ci ildə bütün quberniya şəhərlərində belə bölükləri təsis etmək nəzərdə tutulurdu. Məqsəd isə quberniya şə-

hərlərinin inkişaf mexanizmində ən sərfəli üsulu axtarıb tapmaq və şəxsləri müxtəlif şəhərlərdə istehsalat işlərinə cəlb etmək və bununla həbs olunanların Sibirə göndərilməsində xərcləri azaltmağa nail olmaq idi. Belə bölüklərin tərkibinə azəhəmiyyətli cinayətlərə görə Sibirə sürgünə məhkum edilən, həmçinin müddətli qala işinə və ya ev işinə göndərilən iyirmibeş yaşdan yuxarı qaçqın və səfil şəxsləri yönəltmək əmr olunmuşdu.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamədə belə cəzalar (tənbehlər) islah evində həbsetmə formasında həyata keçirilirdi. Həbs 1 il 6 aydan 6 ilə qədər müddətə təyin edilirdi. Təhlil edilən Qanunnamənin 64, 65 və 67-ci maddələri ilə göstərilən hallarda isə, 8 ilə qədər müddətə təyin edilirdi.

İslah evlərinə həm imtiyazlı olmayan, həm də imtiyazlı siniflərdən olan kişi və qadın cinayətkarlar göndərilirdi. Yalnız 17-21 yaşa qədər olan yetkinlik yaşına çatmayan şəxslər üçün cəzanın müddəti üçdəbirə qədər azaldılırdı. Bundan başqa islah evlərində katorqaya məhkum olunmuş qadın cinsindən olan şəxslər üçün xüsusi otaqlar təşkil edilirdi. Həmin şəxslər "Sürgünə göndərilənlər haqqında" Nizamnamənin qaydalarına görə saxlanılırdı.

Qalada cəza çəkməyə məhkumetmə bəzən inzibati tədbir növündə istifadə olunsa da belə, 1832-ci ilin Qanunlar Külliyyatında cəzanın sistemində adı çəkilmirdi. Qalada dustaqetmə 1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnaməyə şəxsiyyəti alçaltmayan və şərəfsiz niyyət nəzərdə tutmayan əməllərə görə təyin edilən cəza kimi xarici ölkələrin qanunvericiliyinin nümunəsi əsasında daxil edilmişdi. Bu cəzanın xüsusi xarakteri onda ifadə olunurdu ki, ən yüksək cəzanın yüngülləşdirilməsi zamanı məhkəmə belə cəzalardan qalada məhkumetməyə keçmək hüququna malik deyildi. Qalada məhkumetmə elə əməllərə görə tətbiq edilirdi ki, həmin əməllər qanunun daha ciddi pozuntuları ilə müşayiət olunsalar, əhəmiyyətli zərər yetirsələr və cəmiyyət üçün xüsusi təhlükəliliklə bağlı olsalar da, onlar təqsirləndirilənin əxlaqsızlığını və xüsusən də pozğunlaşmasını təsdiq etmirdi və onun öz arzularını qanunun tələblərinə tabe etdirmək bacarığının olmaması nəticəsində törədilirdi. Buna görə də bu cəza heç bir hüquqdan məhrumetməyə səbəb olmurdu. Təhlil edilən cəza 2 həftədən 6 ilə qədər, 1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamənin 64, 65 və 67-ci maddələrində göstərilən hallarda isə, 8 ilə qədər müddətə təyin edilirdi. Qalada məhkumetmə cəzasına məhkum edilən şəxslər cəzanı qalada və ya ümumi həbsxanada xüsusi təşkil edilmiş mənzillərdə çəkirdilər. Onların saxlanılma qaydası ümumi qayda üzrə tək-tək həyata keçirilirdi. Uzaqlığa görə qalaya göndərmə onlar üçün münasib olmadıqda və ya qalanın rəisi ilə əlaqələrinə görə məhkum edilənlər təyin edilmiş cəzanı həbsxanada çəkirdilər.

Qalada məhkumetmə, müddətinə görə, beş dərəcəyə bölünürdü. Bununla belə iki ən yüksək dərəcə həmişə bir sıra hüquqlardan məhrumetmə ilə birləşirdi. Qalada məhkumlar yalnız öz şəxsi arzularına görə işlə məşğul olurdular.

Azadlıqdan məhrumetmənin növbəti növünü həbsxanada məhkumetməklə həyata keçirilən həbs cəzası təşkil edirdi (11). 1832-ci ilin Qanunlar Külliyyatına əsasən, sakitləşdirici və işçi evə məhkumetmə əməyin kateqoriyasına daxil edilirdi. Bununla belə, Külliyyatda qeyd edilirdi ki, işçi evləri olmayan yerlərdə aşağı təbəqənin insanları şəhər işlərində istifadə olunur və ya əgər müəyyən bir şəxs onları götürməyi arzu edərdisə, əmək haqqı almaq üçün xüsusi şəxslərə verilirdilər.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnaməyə əsasən, işçi və sakitləşdirici evlər islah cəzalarının sisteminə daxil edilmişdilər. Bununla yanaşı onlardan birincisi az əhəmiyyətli oğurluğa və imtiyazlı hesab edilməyən şəxslər üçün digər bu kimi cinayətlərə görə islah cəzalarının ikinci növü olaraq nəzərdə tutulurdu. Sakitləşdirici ev isə, təqsirləndirilən şəxsin korlanmış mənəviyyatını sübut edən cinayətlərə görə təyin edilən xüsusi cəza kimi səciyyə qazanmışdı. Lakin bu şəkildə pozulmuş mənəviyyat şəxsi tamamilə şərəfdən məhrum edən amil hesab edilmirdi. Belə mənəvi pozğunluğu göstərən cinayətlərə aid idi: valideynləri təhqir etmə və onlara tabe olmama, müxtəlif növ əxlaqsız və pozğun həyat tərzi keçirmə. Bundan başqa, həbsetmə şəxsiyyətin şərəfini alçaldan və ya yüksək əxlaqsızlıq dərəcəsini göstərən, yaxud müəyyən siyasi əhəmiyyətə malik olan cinayətlərin sırasına aid olmayan kifayət qədər ciddi cəzaya layiq əməllərə görə nəzərdə tutulurdu.

1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamənin 1866-cı il nəşrinə əsasən, işçi evi imtiyazlı olmayan şəxslər üçün təyin edilirdi və müddətinə görə 4 dərəcəyə bölünürdü – 2 aydan 2 ilə qədər müddətə. Bu cəza növü həmişə bütün xüsusi hüquqlardan məhrumetmə ilə birləşdirilirdi. Sakitləşdirici ev bütün silklərdən olan şəxslər üçün təyin edilirdi, həmçinin müddətinə görə də 4 dərəcəyə bölünürdü – 2 aydan 2 ilə qədər müddətə. Bununla birinci iki dərəcə bir sıra hüquq və üstünlüklərdən məhrumetmə ilə birləşirdi. Həbsetmə 2 aydan 1 il 4 aya qədər müddət əsasında üç dərəcəyə bölünürdü (1863-cü il 17 aprelə qədər 3 aydan 2 ilə qədər müddətə).

Təcrübədə və 1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamənin nəşrindən sonra işçi və sakitləşdirici evlər bir-birinə möhkəm calandı. Qanun özü qeyd edirdi ki, işçi və sakitləşdirici evləri və ya həmin evlərdə kifayət qədər mənzili olmayan yerlərdə məhkum edilənlər müxtəlif müddətlərə şəhər həbsxanasının bölmələrinə yerləşdirilirlər.

Qanunda işçi və sakitləşdirici evlərin həbsxana ilə əvəz edilməsi göstərilməklə, bu, birinci növ mənzillərin kifayət etməməsinə görə ən adi hadisə oldu. Şəhərlərdə bu cəza həbsxanada çəkilirdi və məhkəmələr şəxsləri həqiqətən də mövcud olmayan cəzalara məhkum edirdilər. Buna görə də 24 aprel 1884-cü il qanunu ilə işçi evləri ləğv edildi və qanunda bu cəza həbsetmə (həbsxanaya məhkumetmə) ilə əvəz olundu. Bundan başqa hələ əvvəllər bu cəza 1864-cü il "Barışıq məhkəmələri tərəfindən təyin edilən cəzalar haqqında" Nizamnaməyə görə barışıq məhkəmələri tərəfindən təyin edilən cəzaların sırasına daxil edilmişdi.

Beləliklə, 1845-ci il "Cinayət və İslah cəzaları haqqında" Qanunnamənin 1885-ci il nəşrinə əsasən, həbs cəzası aşağıdakı növlərə bölünürdü: bütün xüsusi hüquqlardan məhrumetməklə həbsetmə; bir sıra hüquqlardan məhrumetməklə həbsetmə; sadə həbsetmə; 1864-cü il "Barışıq məhkəmələri tərəfindən təyin edilən cəzalar haqqında" Nizamnaməyə görə həbsetmə.

1903-cü il Cinayət Qanunnaməsi azadlıqdan məhrumetmənin əvvəlki qanunvericilikdə sadalanan ayrı-ayrı növlərini onlara müəyyən dəyişiklik etməklə saxladı. Qanunnamə cəzanın sisteminə Sibirə və uzaq quberniyalara yaşamağa sürgünetməni cəzanın sisteminə daxil etmədi.

1903-cü il Cinayət Qanunnaməsinin 2-ci maddəsinə əsasən, azadlıqdan məhrumetmə cəzasının aşağıdakı növləri nəzərdə tutulurdu:

1) katorqa;
2) sürgünə göndərmə;
3) islah evinə məhkumetmə;
4) qalada dustaqetmə;
5) həbsxanaya məhkumetmə;
6) həbsetmə.

Qanunnamənin 3-cü maddəsi üzrə, ağır cinayətlərə görə cəza kimi katorqa və ya sürgünəgöndərmə, cinayətələrə görə ən yüksək cəza qismində islah evində, qalada və ya həbsxanaya məhkumetmə, xəta adlandırılan cinayətkar əməllərə görə isə, ən yüksək cəza kimi həbsetmə nəzərdə tutulurdu.

Sovet dövründə cəza növü kimi azadlıqdan məhrumetmə Azərbaycan SSR-in cinayət-hüquqi xarakterli bütün əsas qanunvericilik aktlarında saxlanıldı. 1922-ci il Azərbaycan SSR-in ilk CM-in 32-ci maddəsində təsbit edilən cəzanın sistemində ciddi təcridetmə ilə müşayiət olunan və ya onsuz azadlıqdan məhrumetmə nəzərdə tutulurdu. CM-in 34-cü maddəsinə əsasən, azadlıqdan məhrumetmə 6 aydan 10 ilə qədər müddətə təyin edilirdi və cinayətkarın islah olunması üçün zəruri hesab edilən islah təsir tədbirindən asılı olaraq azadlıqdan məhrumetmə yerlərində çəkilirdi. Həmin azadlıqdan məhrumetmə yerlərinə islah-əmək evləri, əmək kənd-təsərrüffatı və sənət koloniyaları, keçid islah evləri aid edilirdi.

1927-ci il Azərbaycan SSR-in ikinci CM-in 22-ci maddəsində azadlıqdan məhrumetmənin aşağıdakı iki növü nəzərdə tutulurdu:

1) SSR İttifaqının uzaq yerlərindəki islah əmək lagerlərində azadlıqdan məhrumetmək;
2) ümumi həbsxanalarda azadlıqdan məhrumetmək.

Qeyd edək ki, azadlıqdan məhrumetmənin sadalanan hər 2 növü cinayət edən şəxslər haqqında tətbiq edilən əsas məhkəmə-islah xasiyyətli ictimai müdafiə tədbirləri sırasına daxil idi. SSR İttifaqının uzaq yerlərindəki islah əmək lagerlərində azadlıqdan məhrumetmək 3 ildən 10 ilə qədər, ümumi həbsxanalarda azadlıqdan məhrumetmək isə 3 ilə qədər müddətə təyin edilirdi. CM-in 30-cu maddəsinə əsasən, SSR İttifaqı daxilindən məhkəmə hökmü ilə qovulmuş şəxs özbaşına qayıtdıqda və həmçinin qovmaq haqqındakı hökmü

həqiqətən yerinə yetirmək mümkün olmadıqda, bu kimi şəxslər haqqında məhkəmə 5 ildən az olmayan müddətə azadlıqdan məhrumetməni tətbiq edirdi. Sonrakı illərdə oğurluq cinayətlərinin tövsifi məsələsində yaranmış ziddiyyətli vəziyyəti aradan qaldırmaq və onların törədilməsinə görə cinayət məsuliyyəti haqqında qanunvericiliyi vahid hala salmaq məqsədi ilə SSRİ Ali Soveti Rəyasət Heyəti 4 iyun 1947-ci ildə "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" fərman qəbul etdi.

Dövlət əmlakının və ictimai əmlakın, həmçinin şəxsi mülkiyyətin oğurlanması ilə mübarizənin gücləndirilməsində bu fərmanların böyük əhəmiyyəti oldu. Onlar müharibədən sonrakı dövrdə qəbul edilmiş qanunvericilik aktları içərisində mühüm yer tuturdu. Bu fərmanlarla əmlakın oğurlanmasına görə sərt məsuliyyət nəzərdə tutulur, həm də dövlət əmlakının oğurlanmasına görə daha ağır cəza müəyyən edilirdi.

Belə ki, 5 maddədən ibarət olan "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" fərmanın 2-ci maddəsində dövlət əmlakının ağırlaşdırıcı hallarda, yəni təkrar olaraq, mütəşəkkil dəstə tərəfindən və ya külli miqdarda oğurlanması üstündə əmlakı müsadirə olunmaqla islah-əmək düşərgəsində saxlanılmaqla 10 ildən – 25 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulurdu. Fərmanın 4-cü maddəsində ictimai əmlakın ağırlaşdırıcı hallarda (təkrar olaraq, mütəşəkkil dəstə tərəfindən və ya külli miqdarda) oğurlanmasına görə əmlakı müsadirə olunmaqla 8 ildən – 20 ilədək müddətə islah-əmək düşərgəsində saxlanılmaqla azadlıqdan məhrumetmə cəzası müəyyən edilirdi (3, 480-481).

Qeyd edək ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 4 iyun 1947-ci ildə "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" fərmanının qəbul edilməsilə digər qanunvericilik aktları ilə yanaşı, Azərbaycan SSR-in 1927-ci il CM-in mülkiyyət əleyhinə cinayətlərə aid bəzi maddələri (79-1, 151, 206, 206-1, 209, 210, 210-1, 211-ci maddələri və 213-cü maddənin 2-ci hissəsi qismən) öz qüvvəsini itirdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 4 iyun 1947-ci il tarixli "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" fərmanının bir sıra çatışmayan cəhətləri var idi. Bunlardan biri onun talamanın edilməsi üsullarından asılı olaraq məsuliyyətin diferensiasiyasına imkan verməməsi idi. Belə ki, talamanın formaları içərisində yalnız "oğurluq, mənimsəmə və israfetmə" fərqləndirilirdi. Məsuliyyətin diferensiasiyası zamanı talamanın qalan formalarına isə əhəmiyyət verilmirdi. Halbuki talamanın törədilməsi üsulları təhlükəlilik dərəcəsinə görə bir-birindən ciddi şəkildə fərqlənir.

4 iyun 1947-ci il tarixli "Dövlət əmlakını və ictimai əmlakı oğurlamaq üstündə cinayət məsuliyyəti haqqında" fərmanın digər çatışmayan cəhəti sanksiyaların çox yüksək olmasında ifadə olunurdu. Bu da təcrübədə ciddi çətinliklər yaradırdı. Məlum olduğu kimi 4 iyun 1947-ci il tarixli fərmanın verilməsilə SSRİ Ali Soveti Rəyasət Heyətinin 10 avqust 1940-cı il tarixli "İstehsalatda xırda oğurluq üstündə və xuliqanlıq üstündə cinayət məsuliyyəti

haqqında” fərmanının “xırda oğurluğa” aid olan və bir il azadlıqdan məhrumetmə cəzası müəyyən edən 1-ci maddəsi (müvafiq olaraq Azərbaycan SSR-in CM-in 206-1-ci maddəsi) qüvvəsini itirdi və miqdarından asılı olmayaraq bütün oğurluğa göstərilən fərmanla tövsif edilməyə başlandı. Buna görə, məsələn, xırda oğurluq da fərmanın ya 1-ci maddəsilə 7 ildən – 10 ilədək müddətə, ya da 3-cü maddəsi ilə 5 ildən – səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə cəzasına səbəb olurdu. Bunu ədalətli saymaq olmazdı. Bununla bağlı olaraq məhkəmələr xırda oğurluğa görə cəza təyin edərkən çox vaxt cəzanın aşağı həddindən də az cəza təyin etməyə imkan verən normaya istinad edərək nisbətən yüngül cəza təyin etməyə məcbur olurdular (4, 32-33).

1961-ci il Azərbaycan SSR-in CM-in 21-ci maddəsində təsbit edilmiş cəzanın növləri sırasında azadlıqdan məhrumetmənin 2 növü nəzərdə tutulmuşdu. Buraya ömürlük azadlıqdan məhrumetmə və müəyyən müddətə azadlıqdan məhrumetmə daxil idi. CM-in 22-1-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə cəzası xüsusi olaraq nəzərdə tutulmuş hallarda təyin edilirdi və cinayət edənə qədər onsəkkiz yaşına çatmayan şəxslər və qadınlar barəsində tətbiq edilmirdi. Cinayət qanunvericiliyinin 23-cü maddəsinə görə, müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası “3 aydan 10 ilə qədər müddətə, ağır cinayətlər və ya ağır nəticələrə səbəb olmuş cinayətlər, habelə xüsusi təhlükəli residivistlər üçün isə, 15 ildən çox olmayaraq müəyyən edilirdi. Cinayət törədənədək onsəkkiz yaşına çatmamış şəxsə cəza təyin olunarkən, azadlıqdan məhrumetmə cəzasının müddəti 10 ildən artıq ola bilməzdi”.

İnqilabdan sonrakı dövrdə azadlıqdan məhrumetmə ən geniş yayılmış cəza növü oldu. Ədəbiyyatda cinayətkarlara səmərəli təsir göstərməyə qabil əsas cəza növü kimi azadlıqdan məhrumetmənin geniş tətbiqinin əsaslılığı haqqında şübhəli fikirlər söylənilirdi. Təcrübənin təhlili də göstərirdi ki, bu cəzaya həddən artıq meyllilik gözlənilən nəticəni əldə etməyə kömək etmir. Bununla belə məhkəmə təcrübəsində azadlıqdan məhrumetmənin real tətbiqi həddən artıq geniş səciyyə daşıyırdı. Azadlıqdan məhrumetmənin tətbiqi həcminin ardıcıl şəkildə genişlənməsi ona gətirib çıxardı ki, bu cəzanın xüsusi çəkisi 1968-ci ildə 66,5%-ə çatmışdı (bir sıra regionlarda 80%-ə yaxınlaşmışdı). Sonrakı illərdə bu göstərici bir qədər aşağı endi və 40-50% hüdudlarında enib-qalxırdı (9, 800). SSRİ Ali Məhkəməsi Plenumu onu təsdiq etməyə məcbur oldu ki, məhkəmələr “bəzən azadlıqdan məhrumetməni, o cümlədən cəmiyyətdən təcrid edilmədən islah və yenidən tərbiyə olunması mümkün olan şəxslərə qısa müddətli azadlıqdan məhrumetməni də əsassız olaraq tətbiq edirlər (10, 104).

17 fevral 1996-cı il MDB ölkələrinin Model Cinayət Məcəlləsində cəzanın növlərini nəzərdə tutan 46-cı maddədə azadlıqdan məhrumetmənin iki növü mövcud idi. Buraya müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə daxil idi. Müəyyən müddətə azadlıqdan məhrumetməni nəzərdə tutan Model CM-in 58.1-ci maddəsində təhlil edilən cəza növünə aşağıdakı kimi anlayış verilirdi:

“Azadlıqdan məhrumetmə, məhkumun islah koloniyasına və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir”.

Azadlıqdan məhrumetməyə məhkum olunan onsəkkiz yaşına çatmayan şəxslər ümumi və gücləndirilmiş rejimli tərbiyə koloniyalarına yerləşdirilirdi. Azadlıqdan məhrumetmənin aşağı həddi kimi 6 ay müəyyən edilmişdi. CM-in 58-ci maddəsinə əsasən, ağır cinayətlərə görə azadlıqdan məhrumetmənin müddəti 12 ildən, xüsusilə ağır cinayətlərə görə isə, azadlıqdan məhrumetmənin müddəti 20 ildən artıq ola bilməzdi. Həmçinin Model CM-in 58.6-cı maddəsində göstərilirdi ki, cinayətlərin məcmusu üzrə cəza təyini zamanı azadlıqdan məhrumetmənin müddətlərinin tam və ya qismən toplanılması halında azadlıqdan məhrumetmənin maksimal müddəti 20 ildən, hökmlərin məcmusu üzrə isə, 25 ildən artıq olmamalıdır.

Model cinayət qanunvericiliyinin 59-cu maddəsində ömürlük azadlıqdan məhrumetmə cəzası təsbit edilmişdir. CM-in 59.1-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrumetmə yalnız ağırlaşdırıcı hallarda zərərçəkmişi qəsdən həyatdan məhrumetməni nəzərdə tutan xüsusilə ağır cinayətlərə görə təyin edilə bilərdi. Ömürlük azadlıqdan məhrumetmə qadınlara, həmçinin onsəkkiz yaşınadək cinayət törətmiş şəxslərə və altmış yaşdan yuxarı olan kişilərə təyin edilmirdi.

Azərbaycan Respublikasının CM-in 55.1-ci maddəsində azadlıqdan məhrumetmə cəzasının anlayışı aşağıdakı kimi verilmişdir:

“Müəyyən müddətə azadlıqdan məhrumetmə məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir”.

Respublikamızın cinayət qanunvericiliyində azadlıqdan məhrumetməyə verilən anlayışda məhkumun yalnız məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə cəmiyyətdən təcrid olunması göstərilir. Lakin məhkum nəinki göstərilən növ cəzaçəkmə müəssisələrinə, həm də tərbiyə və ya müalicə müəssisələrinə yerləşdirilə bilər. Belə ki, Azərbaycan Respublikasının CM-in 55.1 və 85.5-ci maddələrinə əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, lakin hökm çıxarılanadək onsəkkiz yaşı tamam olmamış şəxslər ümumi və möhkəm rejimli tərbiyə müəssisələrində yerləşdirilirlər. Cinayət Məcəlləsinin mövqeyindən çıxış edən Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumu 28 iyun 2002-ci il “Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında” 2№-li qərarında qeyd edir ki, hökm çıxarılanadək onsəkkiz yaşı tamam olmamış şəxs azadlıqdan məhrumetmə cəzasına məhkum edilərsə, məhkəmə cinayət qanunvericiliyinin 85.5-ci maddəsinə əsasən, həmin şəxsə ümumi və ya möhkəm rejimli tərbiyə müəssisəsi təyin edir (1, 208).

Müalicə müəssisələrinə gəlincə, Azərbaycan Respublikasının CM-in 93.1.1-93.1.4-cü maddələrində nəzərdə tutulmuş şəxslərə məhkəmə tibbi xa-

rakterli məcburi tədbirlər təyin edə bilər. Təyin edilmiş tibbi xarakterli məcburi tədbirlər ambulator qaydada və psixiatriya stasionarlarında müalicə edilməklə həyata keçirilir. Azərbaycan Respublikasının CM-in 99-cu maddəsinə əsasən, "cinayət törətdikdən sonra psixi pozuntuya məruz qalmış şəxs müalicə olunduqdan sonra cəza təyin edilərkən və ya onun cəzasının icrası bərpa olunarkən müalicədə bir gün olma müddəti bir gün azadlıqdan məhrum edilmə hesabı ilə hesablanır". Cinayət qanunvericiliyinin 99-cu maddəsinin belə mövqeyi insan hüquqlarının və azadlıqlarının qorunması haqqında Avropa Konvensiyasının mövqeyinə uyğundur. Belə ki, Konvensiyanın 5-ci maddəsində ruhi xəstələrin, alkoqoliklərin və narkomanların qanuni saxlanılması azadlıqdan məhrumetmənin növü kimi qiymətləndirilir (2, 218).

Bu mənada məhkumun tərbiyə və ya müalicə müəssisəsinə yerləşdirilməklə cəmiyyətdən təcrid olunmasını azadlıqdan məhrumetmə kimi qiymətləndirmək lazımdır. Beləliklə, Azərbaycan Respublikasının CM-in 55.1-ci maddəsinin aşağıda göstərilən şəkildə verilməsini zəruri hesab edirik:

"Müəyyən müddətə azadlıqdan məhrumetmə məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya ümumi və möhkəm rejimli tərbiyə müəssisəsinə, həbsxanaya, yaxud psixiatriya stasionarına yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir".

Buna görə də Rusiya Federasiyasının CM-in 56.1-ci maddəsinin mətnini daha uğurlu hesab edirik. N.F.Kuznesovanın və İ.M.Tyaşkovanın redaktəsi altında yazılmış "Rusiyanın Cinayət hüququ" üzrə Ümumi hissə kursunda yazılır: "Rusiya Federasiyasının CM-in 56.1-ci maddəsinə əsasən, azadlıqdan məhrumetmə, məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya tərbiyə müəssisəsinə, həbsxanaya, yaxud müalicə müəssisəsinə yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir. Məhkəmə cinayətin ağırlığını və təqsirləndirilənin şəxsiyyətini əsas götürməklə, adətən o hallarda şəxsi azadlıqdan məhrumetməyə məhkum edir ki, cəzanın məqsədinə nail olunması üçün məhkumun azadlıqda qalmasını məqsədəuyğun hesab etmir, onun islah olunmasını isə, yalnız xüsusi islah təsir tədbirləri kompleksini tətbiq etməklə cəmiyyətdən təcrid olunması yolu ilə mümkün hesab edir" (13, 482).

Azərbaycan Respublikasının CM-in 57.2-ci maddəsində qeyd edilir ki, "ömürlük azadlıqdan məhrumetmə cəzası hökm çıxarılanadək altmış beş yaşına çatmış kişilərə təyin edilmir". Fikrimizcə, Azərbaycan Respublikasının CM-in 57.2-ci maddəsinin bu hissəsinin "ömürlük azadlıqdan məhrumetmə cəzasının hökm çıxarılanadək pensiya yaşına çatmış kişilərə təyin edilməməsi" şəklində verilməsi daha humanist olardı. Belə bir əsasdan çıxış edərək, Azərbaycan Respublikasının CM-in 57.2-ci maddəsinin aşağıda göstərilən şəkildə verilməsini məqsədəuyğun hesab edirik:

"Ömürlük azadlıqdan məhrumetmə qadınlara, cinayət törədərkənonsəkkiz yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək pensiya yaşına çatmış kişilərə təyin edilmir".

Bundan başqa, Azərbaycan Respublikasının CM-in 57.3-cü maddəsində göstərilir ki, "məhkəmə, ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrumetmənin ən azı iyirmibeş ilini həqiqətən çəkdiyini, həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrumetmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər". Məhkəmənin ömürlük azadlıqdan məhrumetmə cəzasını yüngülləşdirməsi üçün qanunun məhkumun üzərinə qoyduğu ən azı iyirmibeş illik müddətin həqiqətən çəkilməsi tələbinin yumşaldılmasını elmi cəhətdən izah etməyi məqsədəmüvafiq hesab edirik. Belə ki, Fransa cinayət-hüququ nəzəriyyəsində cəza problemi üzrə mövcud konsepsiyalardan biri yeni sosial müdafiə konsepsiyasıdır. Yeni sosial müdafiə nəzəriyyəsinin nümayəndələri cəzanın əsas məqsədi kimi cinayətkarın islah olunması və resosiallaşmasını nəzərdən keçirirlər. Onların fikrincə, sosial-müdafiə tədbiri kimi cəzanın məqsədi ilk növbədə, cinayətkarın cəmiyyətə qaytarılması məqsədini güdməlidir (7, 279-280). Yeni sosial müdafiə nəzəriyyəsinin nümayəndələrinin fikirlərindən aydın olur ki, təyin edilən cəzanın müddəti və ya həcmi məhkumu islah etməyə və onu yenidən cəmiyyətə qaytarmağa xidmət etməlidir. Yəni məhkəmənin təyin etdiyi cəza müddətinin çəkilməsi dövründə məhkumun yeni cinayəti törətməkdən çəkindirə bilən zərərli sosial-psixoloji meyllərdən, kriminogen xüsusiyyətlərdən azad olunmasına və həmin müddətdə sosial-pedoqoji təsir tədbirlərinin və əmək tərbiyə vasitələrinin tətbiqi ilə onun şəxsiyyətinin daha dərindən əsaslı şəkildə dəyişdirilməsinə, onda cəmiyyət tərəfindən bəyənilən, fərd və cəmiyyət üçün faydalı olan yeni baxış və prinsiplərin püxtələşməsinə nail olunmuşdursa, məhkum islah olunmuş və yenidən tərbiyə edilmiş hesab edilir (5, 133-134). Biz də, göstərilən mövqedən çıxış edərək hesab edirik ki, əgər qeyd edilən müddətdə qarşıya qoyulmuş məqsədə nail olunmuşdursa, məhkumun cəzanın qalan hissəsini çəkməsinə lüzum yoxdur. Çünki, lazımi cəza müddətinin çəkilməsi və onun icrası ilə bağlı zəruri və kifayətləndirici tədbirlərin həyata keçirilməsi, həm cəzanın xüsusi xəbərdarlığını təmin edir, həm də cinayətkarın yenidən tərbiyə edilməsinə və onun düzgün əmək və həyat yoluna qayıtmasına qayğı göstərilməsini nəzərdə tutur. Fransa yeni sosial müdafiə nəzəriyyəsinin nümayəndələrinin və Azərbaycan Respublikasının görkəmli kriminalist alimi F.Y.Səməndərovun cəzanın məqsədinə nail olunması istiqamətindəki fikirlərini CM-in 57.3-cü maddəsində təsbit edilmiş ömürlük azadlıqdan məhrumetmə növündə cəzanın müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz edilməsi və ya məhkumun bu cəzadan şərti olaraq vaxtından əvvəl azad olunması işində qanunun irəli sürdüyü ən azı iyirmibeş illik müddətin həqiqətən çəkilməsi tələbinin yüngülləşdirilməsi üçün əsas hesab edərək, göstərilən müddətin onbeş və ya iyirmi ilə endirilməsini təklif edirik. Hesab edirik ki,

Azərbaycan Respublikasının CM-in 57.3-cü maddəsi aşağıda göstərilən şəkildə təsbit edilməlidir:

"Məhkəmə, ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrumetmənin ən azı onbeş və ya iyirmi ilini həqiqətən çəkdiyini, həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrumetmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər".

Qeyd edək ki, Almaniyanın CM-in 57-ci paraqrafının 57 b maddəsinə əsasən, məhkumun ömürlük azadlıqdan məhrumetmə cəzasının çəkilməsindən azad olunmasının əsaslarından biri qismində ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrumetmənin onbeş ilini çəkməsi çıxış edir (8, 311-312).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi (1991-2008). Bakı: Hüquq, 2008, 380 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2005, 944 s.
3. Azərbaycan SSR Cinayət Məcəlləsi (Təfsir). Bakı: Azərnəşr, 1948, 528 s.
4. İmanlı M.N. Mülkiyyət əleyhinə edilən cinayətlər. Bakı: Əbilov, Zeynalov və oğulları, 2007, 380 s.
5. Səməndərov F.Y. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Dərs vəsaiti. Bakı: BDU, 2009, 286 s.
6. Ансель М. Новая социальная защита (гуманистическое движение в уголовной политике). М.: Юрид. лит., 1970, 392 с.
7. Есаков Г.А., Крылова Н.Е., Серебренникова А.В. Уголовное право зарубежных стран. М.: 2009, 336 с.
8. Жалинский А.Э. Современное немецкое уголовное право. М.: Проспект, 2006, 560 с.
9. Лунев В.В. Преступность XX века: мировые, региональные и российские тенденции. М.: Проспект, 2005. 912 с.
10. Сборник действующих постановлений Пленумов Верховного Суда СССР, РСФСР и Российской Федерации по уголовным делам. М.: Проспект, 1999.
11. Сергеевский Н. Наказание в XVII веке. М.: Просвещение, 1981, 314 с.
12. Таганцев Н.С. Русское уголовное право. Часть общая. В. 2 т. т. 2 М.: Наука, 1994, 393 с.
13. Уголовное право России. Общая часть: Учебник для вузов / Под ред. Н.Ф.Кузнецовой и И. М.Тяжковой. М.: Зеркало, 2005, 752 с.

## ОБ ИСТОРИИ РАЗВИТИЯ НАКАЗАНИЯ В ВИДЕ ЛИШЕНИЯ СВОБОДЫ

**Э.И.МУРАДОВ**

## РЕЗЮМЕ

В статье комментируется понятие, виды, сроки и условия применения наказания в виде лишения свободы как вид наказания в Своде законов 1845-го и 1903-го годов во времена Царской России начиная с 1832-го года. В России применялись такие виды наказания как каторга, ссылка, исправительный дом и арест. Кроме этого в статье поочередно исследуются принятые в Советском Союзе первые Уголовные кодексы и наказание в виде лишения свободы по закону «Об уголовной ответственности за хищение государственного и общественного имущества» от 4 июня 1947-го года, а также предлагаются пути усовершенствования действующего уголовного законодательства Азербайджанской Республики.

**Ключевые слова:** лишение свободы, ссылка, арест в исправительном доме, заключение в крепость, заключение в тюрьму

## ON THE DEVELOPMENT HISTORY OF THE CRIME OF RESTRAİNT

**E.I.MURADOV**

## SUMMARY

The article studies the concept, kinds, periods and application forms of punishment in the form of restraint in the law codes of 1845 and 1903 years from 1832 during the period of tsarist Russia. Russia applied such kinds of punishment as exile, amendment houses, and arrest. Moreover, the paper analyzes the first criminal codes in the Soviet Union and punishment in the form of restraint in accordance with the law “on legal liability for stealing of social property”.

**Key words:** restraint, reference, arrest, imprisonment